**UOT:** 330.1; 330.8; 336
**JEL:** E 65; E 62; C43;

**GÜLALİYEV M. G.,** PhD
AMEA-nın iqtisadiyyat İnstitutunu, a.e.i.

# XARİCİ TİCARƏTƏ DÖVLƏT MÜDAXİLƏSİ DƏRƏCƏSİ VƏ ONUN MAKROİQTİSADİ TƏSİRLƏRİ

**Xülasə**

**Məqalənin məqsədi:** İqtisadiyyatın solluq (sağlıq) indeksinin-İS(S)İ tərkib hissələrindən biri olan xarici ticarət sub-indeksinin adambaşına ÜDM həcmi, xarici ticarət dövriyyəsi, insan inkişafı indeksi və xarici ticarət balansı ilə əlaqəsinin qiymətləndirilməsi

**Metodologiya:** İqtisadiyyatın Solluq (Sağlıq) İndeksi əsasında ölkələrarası müqayisəli təhlil

**Əsas nəticələr:**1)dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin azalması iqtisadi inkişaf üçün zəruridir, lakin kafi deyil; 2)inkişaf etmiş ölkələrdə dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsi var, lakin bu müdaxilə müəyyən həddi aşmır; 3)İnkişaf etməkdə olan ölkələr üçün xarici ticarətin azadlığı həmişə iqtisadi inkişafla müşaiyət olunmur.

**Açar sözlər:** *İS(S)İ, xarici ticarət sub-indeksi, adambaşına ÜDM*

## GİRİŞ

Elm və texnologiya inkişaf etdikcə insanların tələbi də genişlənib. Tələbin həcmi artdıqca ölkələrarası mal və xidmət mübadiləsi də genişləndirib. Ayrıca götürülən heç bir ölkə onun əhalisinin bütün tələblərini ödəmək imkanında olmadığından digər ölkələrlə mal və xidmət mübadiləsində olmağa məcburdur. Lakin hər bir ölkə ona lazım olan mal və xidməti əldə etmək üçün zəruri miqdarda valyutaya malik olmalıdır. Beləliklə, idxalı reallaşdırmaq üçün ixrac da etməlidir. Lakin hər bir ölkə ona lazım olan keyfiyyətli mal və xidməti iki halda idxal edir. Birincisi, belə mal və ya xidmət ölkə ərazisində istehsal edilmirsə. İkincisi isə, eyni keyfiyyətli mal və ya xidmətin istehsalı ölkə ərazisində daha baha başa gəlirsə. Beləliklə, ölkələr arasında ticarət məcburi deyil, könüllü və qarşılıqlı faydalı xarakterə malik olur.

Lakin bu yalnız ilk baxışda belə problemsiz görsənir. Əslində qarşılıqlı faydalı görsənən beynəlxalq ticarət bəzi problemlərlə müşayiət olunur. Məsələn, ölkədə istehsalı olmayan malın daim idxalı bu malların gələcəkdə istehsalı üçün zəruri olan kadrların, bilik və bacarıqların yetişməsinə mane olur. İkincisi, ölkədə istehsal olunan eyni tip məhsulun idxalı yerli mala əlavə rəqib yaradır və əksər hallarda onu sıxışdırır. Bu isə yerli mal istehsalçılarının mənfəətinə ciddi ziyan vurur və əlavə sosial problemlər yaradır. Əksər hallarda idxal olunan malın keyfiyyəti yerli malın keyfiyyətindən ciddi fərqləndiyindən bazarda rəqabət mühiti yeni göstəricilərə əsasən dəyişir. Məsələn, Azərbaycanda yetişdirilən "qızıləhməd" almasının keyfiyyəti İrandan idxal olunan "palmet" almasının keyfiyyətindən xeyli yüksək olduğundan qiyməti də 4-5 dəfə bahadır. Lakin əhalinin alıcılıq qabiliyyəti aşağı olduğundan bazarda daha çox "palmet" almasının satışı olur. Ona görə də "qızıləhməd" almasının istehsalçısı bazarda sıxışdırılır və belə mühüm məhsul getdikcə bazarda azalır.

### Xarici ticarətə dövlət müdaxiləsinə müxtəlif baxışlar

Hər bir ölkənin xarici ticarət fəaliyyətinin zəruriliyi etiraf edilsə də onun müəyyən hədd çərçivəsində məhdudlaşdırılması da qaçılmazdır. Məsələn, idxalda elə hədd reallaşmalıdır ki, 1) ölkənin öz istehsalçılarına ziyan dəyməsin; 2) ölkəyə keyfiyyətsiz və ya aşağı keyfiyyətli məhsul daxil olmasın. İxrac fəaliyyəti bütün ölkələr tərəfindən xüsusilə dəstəklənən fəaliyyətdir. Lakin bu fəaliyyətdə də müəyyən çərçivə gözlənilməlidir. Yəni ixrac fəaliyyəti elə çərçivədə olmalıdır ki, daxili bazarda qiymətlərə ciddi təsir göstərməsin. Digər tərəfdən, ixracın bütün mallar üzrə tamamilə "azad" olması müəyyən müddətdən sonra ölkədə həmin mallara təklifi azalda və tələblə təklif arasında disbalansa gətirə bilər. Odur ki, ixrac fəaliyyəti ölkəyə əlavə valyuta gətirir və

onun əsas mahiyyəti idxal üçün valyuta təminatının yaradılmasıdər. Ona görə də ixrac elə həddə olmalıdır ki, o, gələcəkdə idxalı stimullaşdırmış olmasın.

Beləliklə, tarixən, dövlətlər beynəlxalq iqtisadi əlaqələri, xüsusilə də xarici ticarəti genişləndirməklə yanaşı, onun həmişə nəzarətdə saxlanmasını və tənzimlənməsi məsələsini də diqqətdə saxlayıblar. Beləliklə, xarici ticarət fəaliyyətində bir-birinə zidd iki baxış formalaşıb. Bunların birincisi (proteksionizm) – müxtəlif iqtisadi və siyasi alətlərlə daxili bazarın neqativ xarici müdaxilələrdən qorunmasını və ölkə sahibkarlarının xarici bazarlarda müdafiəsini, ikincisi isə (fritrederçilik), əksinə, beynəlxalq ticarətdə (geniş anlamda – dövlətlərarası iqtisadi əlaqələrdə) hər növ məhdudiyyətlərin aradan qaldırılmasını ehtiva edir.

Dünyada elə bir ölkə yoxdur ki, xarici ticarət fəaliyyəti yerinə yetirməsin və onu genişləndirməyə cəhd etməsin. Eyni zamanda da, dünyada elə bir ölkə yoxdur ki, öz daxili bazarını qorumağa çalışmasın. Beləliklə, “proteksionist” və “freetrederçilik” bütün ölkələrə bu və ya digər dərəcədə xasdır. Odur ki,müzakirələr bu iki yanaşmadan hansının “yaxşı”, hansının “pis” olması ətrafında getməməlidir. Əsas problem bu yanaşmalar arasında ölkə üçün “ən optimal” vəziyyətin tapılmasıdır. Yəni ölkənin xarici ticarəti o dərəcədə “azad” olmalıdır ki (freetrederçilik), onun daxili bazarına zərər gəlməsin (proteksionizm).

Proteksionizmi tənqid edən tədqiqatçılar belə hesab edirlər ki, ölkə bazarına daha ucuz və daha keyfiyyətli xarici məhsulun daxil olması yerli istehlakçıların hüququnun qorunmasıdır. Demək olar ki, əksər ölkələrin qanunlarında istehlakçıların əsas hüquqlarından biri də onların bazarda keyfiyyətli mal almaq hüququdur. Belə olan halda nə üçün bu istehlakçıların hüququ yerli mallara əlavə imtiyaz yaratmaq şərti ilə pozulmalıdır? Məsələn, uşaq oyuncaqları istehsal edən bəzi ölkələrdə belə oyuncaqların idxalına məhdudiyyət qoyulur. Lakin bütün ailələr uşaqlarına daha gözəl və maraqlı oyuncaqlar almaq hüququna malikdirlər. Nə üçün bu ailələr, o cümlədən uşaqlar belə hüquqdan məhrum olmalıdır? Müxtəlif istehlak mallarına belə ciddi məhdudiyyətlərin qoyulması keçmiş Sovet ittifaqında geniş tətbiq edilirdi. Belə məhdidiyyətlər “qara bazarı” formalaşdırırdı və ölkədə gizli iqtisadiyyat genişlənirdi.

Lakin başqa hallar da olur. Məsələn, ucuz və keyfiyyəti aşağı olan, hətta mənşəyi bilinməyən mətbəx yağlarının alıcılıq qabiliyyəti aşağı olan ölkəyə idxal edilməsi, çox hallarda onun reklamı insanlarda belə ərzaqdan istifadə imkanlarını çoxaldır. Bu malı almaq və ya almamaq istehlakçının hüququdur. Lakin bütün istehlakçılar bütün mallar üzrə yüksək ixtisaslı “ekspert” ola bilməzlər. Deməli, dövlət öz vətəndaşlarının sağlamlığı qayğısına qalmaq məqsədilə idxal olunan mallara nəzarət etməlidir. Belə nəzarət isə keyfiyyətsiz məhsulun ölkə bazarına daxil olmasına qadağalar qoya bilər. Beləliklə, “proteksionizm” və “freetrederçilik” yanaşmalarına bir-birini tamamilə təkzib edən iki dünyagörüşü kimi baxmaq düzgün deyil. Əslində, mövcud olan proteksionizmdir. Onun dərəcəsinin azalması və ya çoxalması var.

Beləliklə, hər bir ölkənin iqtisadiyyatı üçün əsas sual dövlətin xarici ticarəti “məhdudlaşdırmalı olub-olmaması” ilə yox, “nə qədər məhdudlaşdırmalı olması” ilə bağlıdır. Dövlətin iqtisadiyyatın hər hansı bir sahəsini, o cümlədən xarici ticarət fəaliyyətini hər hansı bir dərəcədə məhdudlaşdırması onun iqtisadiyyata müdaxiləsidir. Dövlətin iqtisadiyyata müdaxiləsinin dərəcəsi ölçüləbiləndir və müxtəlif göstəricilərlə qiymətləndirilə bilər.

**Metodologiya**

“Dövlətin iqtisadiyyata müdaxiləsi” və “iqtisadi azadlıq” anlayışları bir-birinə zidd olsa da reallıqda mövcud olan yalnız “dövlətin iqtisadiyyata müdaxiləsini” reallaşdıran qanunlar, qaydalar, normativlər və sair məhdudlaşdırıcı və ya qadağanedici hüquqi çərçivələrdir. Belə hüquqi çərçivələrin olmaması və ya az olması “iqtisadi azadlığı” yaradır. Beləliklə, hər bir ölkədə məhdudlaşdırıcı və ya qadağanedici hüquqi çərçivələrlə əlaqəli olan iqtisadi göstəricilərin ölçülməsi ilə “iqtisadi azadlığı”, həmçinin xarici ticarət azadlığını qiymətləndirmək mümkündür.

Belə qiymətləndirmələr müxtəlif beynəlxalq qurumlar, tədqiqat mərkəzləri tərəfindən aparılır. Məsələn, Freyzer İnstitutu, Heritage Fondu, Dünya Bankı, Dünya İqtisadi Forumu və sair təşkilatlar iqtisadiyyata dövlət müdaxiləsi ilə bağlı müqayisəli qiymətləndirmələr aparırlar. Heritage Fondu "iqtisadi azadlığı" [1] daha çox hökumətin nəzarət sahəsində bu və ya digər dərəcədə ola bilən və iqtisadi mühitə təsir göstərən 4 əsas aspektlə, a) qanunun aliliyi, b)hökumətin ölçüsünü, c)tənzimləmənin səmərəliliyi və d) bazarın açıqlıq dərəcəsi əlaqələndirir.

Dünya Bankının hazırladığı və "Doing buisness" reytinqləri [2] adlandırılan müqayisəli qiymətləndirmədə "müəssisələrin yaradılması", "tikintiyə icazələrin alınması", "elektrik şəbəkələrinə qoşulma", "mülkiyyətin qeydiyyata alınması", "kreditlərin alınması", "kiçik investorların qorunması", "vergi sistemi", "xarici ticarət", "müqavilələrin yerinə yetirilməsinin təmin edilməsi", "borcödəmə imkanının olmaması probleminin həlli" və "əmək bazarının tənzimlənməsi" kimi 11 aspekti əhatə edir.

Belə qiymətləndirmə metodologiyalarından biri də AMEA-nın iqtisadiyyat İnstitutu tərəfindən hazırlanan "iqtisadiyyatın solluq (sağlıq) indeksidir"[3]. Bu metodologiyanın əsaslandığı başlıca prinsip ondan ibarətdir ki, hər bir ölkədə iqtisadi fəaliyyətin istiqaməti bu ölkənin qanunvericiliyindən çox asılıdır. Qanunların mahiyyətcə dəyişməsi bu və ya digər dərəcədə iqtisadi inkişafa təsir göstərir. İstənilən qanun isə məhdudlaşdırıcı və tənzimləyici rol oynayır. Ona görə də qanunları bir-birindən fərqləndirən əsas cəhət onların məhdudlaşdırma və tənzimləmə dərəcəsinin, həmçinin belə müdaxilələrin əhatə sferasının fərqliliyidir. Eyni fikirləri xarici ticarətlə bağlı demək mümkündür. Belə ki, xarici ticarət fəaliyyətində tətbiq edilən siyasi-iqtisadi alətlər, məsələn, idxal vergi və rüsumları, idxal və ixrac kvotaları, inzibati məhdudiyyətlər, birbaşa subsidiyalar, ixrac təşviqləri dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin göstəriciləridir. İS(S)İ-nin əsaslandığı prinsipə görə belə müdaxilənin azalması qəbul edilən "sağ" yönlü, müdaxilənin güclənməsi isə "sol" yönlü qanunların qəbulu ilə əlaqədardır. Müdaxilənin dərəcəsinin artması və ya azalması, bağqa sözlə desək, "sağ" və ya "sol" yönlü qanunların qəbulu bütün ölkələrdə eyni nəticə vermir. Yəni bəzi ölkələrdə xarici ticarətdə "sağ" yönlü, bəzi ölkələrdə isə "sol" yönlü qanunlar iqtisadi inkişafa səbəb ola bilir.

İS(S)İ inteqral indeks olaraq bir neçə indeksi, o cümlədən xarici ticarət sub-indeksini özündə birləşdirir. Xarici ticarət sub-indeksi isə üç alt-indeksdən formalaşır. Birincisi, xarici ticarətin prosedurları ilə bağlıdır. Xarici ticarət fəaliyyətini həyata keçirmək üçün mövcud olan qaydaların idxalçı və ya ixracatçı üçün nə dərəcədə əlverişli olması çox mühümdür. Dünya Bankı xarici ticarət prosedurlarının əlverişliliyini üç göstərici ilə müəyyən edir: a)idxal və ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan sənədlərin sayı; b) ixrac və idxal əməliyyatlarının rəsmiləşdirilməsinə sərf olunan vaxt; c) ixrac və idxal əməliyyatlarının rəsmiləşdirilməsinə çəkilən xərc. *İxrac-idxal prosedurlarının sadəliyi indeksi* adlanan alt-indeks bu üç göstəricinin sadə ortası kimi hesablanır. Əlbəttə, belə qiymətləndirmələr aparılarkən bəzi fərzlər edilir. Məsələn, fərz edilir ki, daşınacaq yük quru yükdür, təhlükəli deyil, hərbi silah-sursat deyil, ölkənin əsas ixrac (idxal) məhsullarından biridir, çəkisi 10 t, qiyməti 20 min ABŞ dollarıdır və s. Xarici ticarət fəaliyyəti məhdud məsuliyyətli cəmiyyət tərəfindən həyata keçirilir və yerli şirkətdir. Belə şirkətin xüsusi imtiyazı yoxdur və 60 işçisi var. Qiymətləndirmələr aparılarkən belə fərzlərin edilməsi müəyyən xətalar yaratsa da ölkənin xarici ticarət prosedurlarını müqayisəli qiymətləndirməyə imkan verir.

Xarici ticarət sub-indeksinin ikinci alt-indeksi *xarici ticarət azadlığı* alt-indeksidir. Xarici ticarət azadlığı indeksi Freyzer İnstitutu tərəfindən hesablanır. Bu indeksi ölçmək üçün müxtəlif göstəricilər, o cümlədən tariflər (xarici ticarət vergilərinin xarici ticarətin ümumi həcminə nisbəti, orta tarif dərəcəsi, tarif dərəcələrinin orta tarif dərəcəsindən kənarlaşmaları), tənzimləmə baryerləri (qeyri-tarif ticarət baryerləri, idxal və ixrac sənədləşdirməsinin sadəliyi), qara bazar valyuta kursları, kapitalın sərbəst axını və insanların hərəkət sərbəstliyi (xarici mülkiyyətə / xarici investisiyalara məh-

dudiyyətlər, kapital üzərində nəzarət, xaricilərin ölkəyə gəlib-getmə sərbəstliyi) müqayisəli qiymətləndirilir [4].

Xarici ticarət sub-indeksinin üçüncü alt-indeksi beynəlxalq ticarətdə iştirak və ya idxalın iqtisadi qiyməti indeksi adlanır. Bu alt-indeksin göstəriciləri Dünya İqtisadi Forumu iki ildə bir dəfə "Beynəlxalq ticarətdə iştirak"*(The Global Enabling Trade Report)* adlı məruzəsinin hazırlandığı metodologiyadan istifadə edilərək hesablanır. Bu indeks hər birinin çəkisi 25% olan 4 alt-indeks əsasında hesablanır: a) İdxal tarifləri və ixracatçıların xarici bazarlara girərkən ödədiyi vergi və rüsumlar; b) Sərhəd-gömrük xidmətlərinin keyfiyyəti; c) infrastruktur; d) əməliyyat mühiti.

Xarici ticarət sub-indeksinin dördüncü alt-indeksi Heritage Foundation tərəfindən hazırlanan metodologiya əsasında hesablanan ticarətin azadlığı indeksidir. Bu indeks idxal edilən hər məhsulun ümumi idxalda payı və bu məhsula tətbiq edilən tarif dərəcəsi əsasında ölkə üçün çəkili orta tarif dərəcəsi tapılıb "əks işarə ilə" (yəni ticarətin məhdudlaşdırılması deyil, azadlığı göstəricisi kimi) indeksləşdirilir və sonra bu indeksdən qeyri-tarif baryerlərinə görə "cərimə" xalları (0, 5, 10, 15, yaxud 20 xal) çıxılır.

Beləliklə, İS(S)İ-nin tərkib hissəsi olan xarici ticarət sub-indeksi nüfuzlu beynəlxalq reytinq təşkilatlarının metodologiyasına əsaslanaraq siyasi mübarizə predmeti olan iqtisadi qanunların, qərarların, normativlərin iqtisadiyyata təsirini müqayisəli qiymətləndirməyə imkan verir. Bu sub-indeks, bütövlükdə İS(S)İ kimi, dövlətin iqtisadiyyata hər cür müdaxilsəini deyil, yalnız müəyyən dövr üçün model yaratmaq gücündə olan müdaxilsini ölçməyi qarşıya məqsəd qoyur. Belə qiymətləndirmə vasitəsilə xarici ticarət sahəsində dövlətin iqtisadi siyasətinin hər hansı istiqamətdə dəyişməsinin iqtisadi nəticələrini müəyyən etmək və proqnozlaşdırmaq mümkündür. Belə ki, bu metodologiya əsasında hər hansı bir ölkənin xarici ticarət sub-indeksinin dinamikasının digər makroiqtisadi göstəricilərlə əlaqəsi həyata keçirilən iqtisadi islahatların müsbət və ya mənfi təsirini əks etdirə bilər.

*Hipoteza:*

1. *Əsas hipoteza ondan ibarətdir ki, dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin azalması iqtisadi inkişaf üçün zəruridir, lakin kafi deyil. Başqa sözlə desək, dövlətin xarici ticarət fəaliyyətinə daha az müdaxilə etməsi həmişə iqtisadiyyatın inkişafı ilə müşayiət olunmur.*
2. *Digər hipoteza ondan ibarətdir ki, inkişaf etmiş ölkələrdə dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsi var, lakin bu müdaxilə müəyyən həddi aşmır.*
3. *İnkişaf etməkdə olan ölkələr üçün xarici ticarətin azadlığı həmişə iqtisadi inkişafla müşaiyət olunmur.*

**Tədqiqatın əsas tapıntıları**

1-ci cədvəldə İS(S)İ metodologiyasına uyğun olaraq 2015-ci il üçün 66 ölkənin xarici ticarət sub-indeksi, alt- göstəricilər üzrə ballar və alt-indekslər verilib. Burada həmçinin 66 ölkə üzrə adambaşına ÜDM həcmi də əks olunub. Cədvəldə müxtəlif coğrafi məkanda yerləşən, iqtisadi inkişaf səviyyəsi, əhalisinin sayı, ərazisinin ölçüsü və sair müxtəlif olan ölkələrin göstürülməsi təsadüfi deyil. İqtisadi, siyasi, coğrafi və sair göstəriciləri fərqli olan ölkələrin bir-biri ilə müqayisəsi xarici ticarət şəraitinin bu ölkələrin iqtisadi inkişafına necə təsir etdiyi haqda müəyyən informasiya verə bilər.

İS(S)İ-nin xarici ticarət sub-indeksinin alt-indekslərinin hesablanması zamanı hər indeksə aid balların mümkün maksimum və mümkün minimum həddləri nəzər alınır. Belə ki, bu tədqiqat zamanı indeksləmə zamanı minimum və maksimum qiymətlər "xarici ticarət azadlığı" alt-indeksi üçün (0;10), "idxalın iqtisadi qiymətləndirilməsi" alt-indeksi üçün (0;10), "ticarət azadlığı" alt-indeksi üçün (0;100) kimi götürülüb.

1-ci qrafikdə isə xarici ticarət sub-indeksi ilə bu ölkələrdəki adambaşına ÜDM arasındakı əlaqə verilib. Qrafikdən görünür ki, adambaşına ÜDM həcmi yüksək olan bütün ölkələr daha liberal xarici siyasətə malikdirlər. Öyrənilən 66 ölkə arasında adambaşına ÜDM həcmi 20 min ABŞ dollarından yüksək olan bütün ölkələr üçün xarici ticarət sub-indeksi 0,26-dan azdır. Əksini iddia etmək mümkün deyil. Belə ki, ölkənin xarici ticarət şəraitinin daha liberal olması, məsələn, xarici ticarət

sub-indeksinin 0,26-dan az olması onun adambaşına ÜDM həcminin mütləq yüksək olacağına zəmanət vermir. Deməli, yuxarıda irəli sürülən hipotez doğrudur ki, *dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin azalması iqtisadi inkişaf üçün zəruridir, lakin kafi deyil.*

**Cədvəl №1**

***Bəzi ölkələr üzrə xarici ticarət sub-indeksi, onun alt-indeksləri və adambaşına ÜDM arasındakı əlaqə***

| | Xarici ticarət azadlığı (bal) [5] | Xarici ticaret azadligi alt-indeksi | Idxalın iqtisadi qiyməti (bal) [6] | Idxalin iqtisadi qiymeti alt-indeksi | Ticarətin azadlığı (bal) [7] | Ticaret azadligi alt - indeksi | XT sub-indeksi | ÜDM ($/per capita) |
|---|---|---|---|---|---|---|---|---|
| ABŞ | 7,7 | 0,77 | 5,3 | 0,72 | 87 | 0,87 | 0,21 | 54629,5 |
| Albaniya | 7 | 0,7 | 5,9 | 0,82 | 87,8 | 0,878 | 0,20 | 4564,4 |
| Almaniya | 7,8 | 0,78 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 47773,9 |
| Avstraliya | 7,7 | 0,77 | 5,6 | 0,77 | 86,4 | 0,864 | 0,20 | 61979,9 |
| Avstriya | 7,8 | 0,78 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 51122,4 |
| **Azərbaycan** | **6,8** | 0,68 | **4,3** | 0,55 | **76** | 0,76 | 0,34 | 7886,5 |
| BƏƏ | 8,2 | 0,82 | 4,9 | 0,65 | 82,4 | 0,824 | 0,23 | 43962,7 |
| Bolqarıstan | 7,6 | 0,76 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,24 | 7851,3 |
| Bosniya-Hers. | 7,3 | 0,73 | 5,3 | 0,72 | 87,2 | 0,872 | 0,23 | 4851,7 |
| B. Britaniya | 8,6 | 0,86 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,20 | 46297 |
| Braziliya | 7,1 | 0,71 | 4 | 0,5 | 69,6 | 0,696 | 0,36 | 11726,8 |
| C. Afrika R. | 7,2 | 0,72 | 5 | 0,67 | 76,6 | 0,766 | 0,28 | 6483,9 |
| Çexiya | 7,9 | 0,79 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 19502,4 |
| Çin | 6,7 | 0,67 | 4,2 | 0,53 | 71,8 | 0,718 | 0,36 | 7590 |
| Danimarka | 8,2 | 0,82 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,22 | 60718,4 |
| Ermənistan | 7,3 | 0,73 | 5,8 | 0,8 | 85,4 | 0,854 | 0,21 | 3873,5 |
| Estoniya | 8,3 | 0,83 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,21 | 20147,8 |
| Finlandiya | 8,4 | 0,84 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,21 | 49842,7 |
| Fransa | 8 | 0,8 | 4,9 | 0,65 | 83 | 0,83 | 0,24 | 42725,7 |
| Gürcüstan | 8,5 | 0,85 | 6 | 0,83 | 88,6 | 0,886 | 0,14 | 4435,2 |
| Hindistan | 6,2 | 0,62 | 2,9 | 0,32 | 64,6 | 0,646 | 0,47 | 1581,5 |
| İndoneziya | 6,8 | 0,68 | 5,4 | 0,73 | 74,8 | 0,748 | 0,28 | 3491,9 |
| İran | 2,6 | 0,26 | 2,4 | 0,23 | 41,4 | 0,414 | 0,70 | 5442,9 |
| İrlandiya | 8,7 | 0,87 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,20 | 54339,3 |
| İspaniya | 7,7 | 0,77 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 29721,6 |
| İsrail | 7,9 | 0,79 | 5,3 | 0,72 | 88,6 | 0,886 | 0,20 | 37206,2 |
| İsveç | 7,9 | 0,79 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 58898,9 |
| İsveçrə | 7,2 | 0,72 | 4,6 | 0,6 | 90 | 0,9 | 0,26 | 85616,6 |
| İtaliya | 7,6 | 0,76 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,24 | 35222,8 |
| Kanada | 7,7 | 0,77 | 5,7 | 0,78 | 88,4 | 0,884 | 0,19 | 50230,8 |
| Kipr | 7,7 | 0,77 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 27194,4 |
| Latviya | 8,1 | 0,81 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,22 | 15692,2 |
| Litva | 7,6 | 0,76 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,24 | 16489,7 |
| Lüksemburq | 8,1 | 0,81 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,22 | 116613 |
| Macarıstan | 7,7 | 0,77 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 14026,6 |
| Makedoniya | 7,7 | 0,77 | 5,5 | 0,75 | 86,2 | 0,862 | 0,21 | 5455,6 |
| Malayziya | 7,6 | 0,76 | 4,8 | 0,63 | 80 | 0,8 | 0,27 | 11307,1 |
| Malta | 8,1 | 0,81 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,22 | 22776,2 |
| Meksika | 7 | 0,7 | 5,2 | 0,7 | 85,6 | 0,856 | 0,25 | 10325,6 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Misir | 6,2 | 0,62 | 3,3 | 0,38 | 70 | 0,7 | 0,43 | 3365,7 |
| Moldova | 6,8 | 0,68 | 5 | 0,67 | 79,8 | 0,798 | 0,28 | 2238,9 |
| Monteneqro | 7,7 | 0,77 | 5,7 | 0,78 | 84,8 | 0,848 | 0,20 | 7378,3 |
| Niderland | 8,5 | 0,85 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,21 | 52138,7 |
| Norveç | 7,4 | 0,74 | 5 | 0,67 | 89,4 | 0,894 | 0,23 | 97299,6 |
| Polşa | 7,4 | 0,74 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,24 | 14336,8 |
| Portuqaliya | 7,9 | 0,79 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 22124,4 |
| Qazaxıstan | 5,5 | 0,55 | 3,8 | 0,47 | 79 | 0,79 | 0,40 | 12601,6 |
| Qətər | 7,8 | 0,78 | 5,9 | 0,82 | 81,8 | 0,818 | 0,19 | 96732,4 |
| Qırğızıstan | 6,5 | 0,65 | 4,7 | 0,62 | 80,2 | 0,802 | 0,31 | 1268,9 |
| Rumıniya | 7,8 | 0,78 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 10000 |
| Rusiya | 6,1 | 0,61 | 3,3 | 0,38 | 75 | 0,75 | 0,42 | 12735,9 |
| Serbiya | 7,2 | 0,72 | 4 | 0,5 | 78,2 | 0,782 | 0,33 | 6152,9 |
| S. Ərəbistanı | 6,1 | 0,61 | 4,7 | 0,62 | 76,4 | 0,764 | 0,34 | 24406,5 |
| Sinqapur | 8,9 | 0,89 | 7 | 1 | 90 | 0,9 | 0,07 | 56284,3 |
| Slovakiya | 7,9 | 0,79 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,23 | 18500,7 |
| Sloveniya | 7,4 | 0,74 | 4,9 | 0,65 | 88 | 0,88 | 0,24 | 24001,9 |
| Tailand | 6,9 | 0,69 | 3,7 | 0,45 | 75,4 | 0,754 | 0,37 | 5977,4 |
| Tayvan | 7,7 | 0,77 | 5 | 0,67 | 86,4 | 0,864 | 0,23 | 39600 |
| Tunis | 7,1 | 0,71 | 4,2 | 0,53 | 61,2 | 0,612 | 0,38 | 4420,7 |
| Türkiyə | 7,3 | 0,73 | 5,1 | 0,68 | 84,6 | 0,846 | 0,25 | 10515 |
| Ukrayna | 6,7 | 0,67 | 5,5 | 0,75 | 85,8 | 0,858 | 0,24 | 3082,5 |
| Vyetnam | 6,4 | 0,64 | 4,8 | 0,63 | 78,6 | 0,786 | 0,31 | 2052,3 |
| Xorvatiya | 7,7 | 0,77 | 5,2 | 0,7 | 87,2 | 0,872 | 0,22 | 13475,3 |
| Yaponiya | 7,4 | 0,74 | 5,3 | 0,72 | 82,6 | 0,826 | 0,24 | 36194,4 |
| Y. Zelandiya | 8,5 | 0,85 | 6,1 | 0,85 | 86,8 | 0,868 | 0,14 | 44342,2 |
| Yunanıstan | 7,6 | 0,76 | 4,9 | 0,65 | 83 | 0,83 | 0,25 | 21672,7 |

**Mənbə:***Müəllif tərəfindən hesablanaraq tərtib edilib*

*Başqa sözlə desək, dövlətin xarici ticarət fəaliyyətinə daha az müdaxilə etməsi həmişə iqtisadiyyatın inkişafı ilə müşayiət olunmur. Nəzərdən keçirilən ölkələrdən biri-Səudiyyə Ərəbistanı qeyd etdiyimiz hipotezada istisna təşkil edir, amma qeyd etmək lazımdır ki, onun adambaşına ÜDM həcmində əsas rolu neft ixracı təşkil edir və xarici ticarət şəraiti ilə ÜDM arasındakı əlaqə ölkədəki iqtisadi liberallıq səviyyəsini adekvat əks etdirmir. Tədqiq edilən ölkələr arasında xarici ticarət sub-indeksi ən çox olan, yəni daha "sol" ölkə İran, ən az ölkə isə, yəni daha "sağ" ölkə Sinqapurdur.*

**Qrafik №1**

***Xarici ticarət sub-indeksi ilə adambaşına ÜDM həcmi arasındakı əlaqə***



IS(S)I-nin bütün komponentləri o cümlədən xarici ticarət sub-indeksiv və onun alt-indeksləri dinamik göstəricilərdir. Bu göstəricilərin dinamikliyi dövlətin iqtisadiyyata müdaxiləsinin dinamikliyi ilə bağlıdır. İqtisadiyyatın müxtəlif sahələri ilə, o cümlədən xarici ticarətlə bağlı dövlətin həyata keçirdiyi istənilən

Bu islahatlar mahiyyətindən asılı olaraq ölkənin xarici ticarət fəaliyyətini ya liberallaşmaya ("sağa"), ya da proteksionizmə ("sola") yönləndirir. Yuxarıda qeyd etdiyimiz kimi ölkənin xarici ticarət fəaliyyətinin"sağa" meyllənməsi iqtisadi inkişafı üçün zəruri olsa da kafi deyil. Çünki ölkənin iqtisadi inkişafı təkcə xarici ticarətdən asılı deyil. Lakin ölkə inkişaf etmiş ölkədirsə onun "sağda" olması labüddür. Beləliklə, inkişaf etməkdə olan ölkələrin xarici ticarət fəaliyyətində getdikcə "sağa" meyllənməsi onun gələcəkdə inkişafı üçün zəruri olan potensial şəraitin yaradılması deməkdir.

tədbirlər, məsələn, tariflərin dəyişdirilməsi, qeyri-tarif məhdudiyyətlərinin artması və ya azalması, gömrük siyasətində baş verən islahatlar və sair özünü xarici ticarət sub-indeksinin və onun alt-indekslərinin qiymətində göstərir. Belə islahatlar isə adətən ölkənin iqtisadi siyasətində "modelyaradıcı" rol oynayır.

2-ci cədvəldə Azərbaycanın son 15 ildə xarici ticarət sub-indeksinin və onun alt-indekslərinin inkişaf dinamikası hesablanıb. Cədvəldən görünür ki, xarici ticarət sub-indeksinin və onun bütün komponentlərinin göstəriciləri azalan dinamikaya malikdir. Başqa sözlə desək, son 15 ildə Azərbaycanın xarici ticarət şəraiti "sağa" meyllənib. Bunu 2-ci qrafikdən daha əyani görmək mümkündür. Azərbaycanın xarici ticarət şəraiti 2000-2003-cü illərdə daha sürətlə liberallaşıb. Liberallaşma prosesi sonrakı illərdə bir qədər yavaşasa da 2005-2012-ci illərdə davamlı olub.

**Cədvəl №2**

***Azərbaycanda xarici ticarət sub-indeksinin dinamikası***

| | **Ticarət azadlığı (bal)** [8] - $X1_t$ | index | **xarici ticarət azadlığı (bal)-** $X2_t$[9][1] | index | **idxalin iqtisadi qiyməti (bal)-** $X3_t$ | **index** | **xarici ticarət sub-indeksi-** $X_t = (X1_t + X2_t + X3_t)/3$ |
|---|---|---|---|---|---|---|---|
| 2000 | 55 | 0,45 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,436 |
| 2001 | 66,8 | 0,332 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,396666667 |
| 2002 | 74,4 | 0,256 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,371333333 |
| 2003 | 71,6 | 0,284 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,380666667 |
| 2004 | 69,2 | 0,308 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,388666667 |
| 2005 | 69,2 | 0,308 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,388666667 |
| 2006 | 72,6 | 0,274 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,377333333 |
| 2007 | 77,6 | 0,224 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,360666667 |
| 2008 | 78,4 | 0,216 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,358 |
| 2009 | 78,4 | 0,216 | 5,92 | 0,408 | 4,3 | 0,45 | 0,358 |
| 2010 | 77,1 | 0,229 | 6,48 | 0,352 | 4,3 | 0,45 | 0,343666667 |
| 2011 | 77,1 | 0,229 | 6,54 | 0,346 | 4,3 | 0,45 | 0,341666667 |
| 2012 | 77,2 | 0,228 | 6,79 | 0,321 | 4,3 | 0,45 | 0,333 |
| 2013 | 77,2 | 0,228 | 6,79 | 0,321 | 4,3 | 0,45 | 0,333 |
| 2014 | 77,2 | 0,228 | 6,79 | 0,321 | 4,3 | 0,45 | 0,333 |
| 2015 | 76 | 0,24 | 6,79 | 0,321 | 4,3 | 0,45 | 0,337 |
| 2016 | 75,8 | 0,242 | 6,79 | 0,321 | 4,3 | 0,45 | 0,337666667 |

**Mənbə:***Müəllif tərəfindən hesablanaraq tərtib edilib*

[1]Bu göstəricilər 2005, 2010, 2011, 2012-ci illər üzrə [9] mənbədən götürülüb və digər yaxın illərə aid edilib.

Qrafikdən görünür ki, 2013-cü ildən başlayaraq, xüsusilə 2015-cü il devalvasiyasından sonra Azərbaycanın xarici ticarətində proteksionist meyllər artıb. Bu da təbiidir. Belə ki, dünyanın bütün ölkələrində iqtisadi problemlər yarananda ölkənin “sol” yönümlü qərarlar qəbul etməsi praktikası var. Lakin Azərbaycanda son bir ildə milli valyutanın devalvasiyası ilə bağlı daxili bazarın qorunması zərurəti proteksionist qərarların qəbulunu tələb etsə də belə qərarlar o qədər də kəskin olmayıb və Azərbaycanın xarici ticarətində “sağ” meyllilik saxlanılır.

**Qrafik №2**




1-Qrafikdən görünür ki, inkişaf etməkdə olan və adambaşına ÜDM həcmi 20 min ABŞ dollarından az olan ölkələrin 2015-ci il üçün xarici ticarət sub-indeksi 0,1-0,7 arasında paylanıb. Azərbaycanın da bu göstəricisi 0,34 –dür və bu intervalda yerləşir.

**Cədvəl №3**

***Azərbaycanın xarici ticarət sub-indeksi ilə bəzi makroiqtisadi göstəricilər arasında laqə***

| | Xarici ticarət sub-indeksi- $X_t$ | ÜDM (mln ABŞ dolları) [10] G | Idxal (mln.ABŞ dolları) [11] $İ_t$ | Ixrac (mln ABŞ dolları) [12] $E_t$ | Xarici ticarət dövriyyəsi (mln ABŞ dolları) $B_t = E_t + İ_t$ | Xarici ticarət balansı (mln ABŞ dolları) $B_t = E_t - İ_t$ |
|---|---|---|---|---|---|---|
| 2000 | 0,436 | 5272,8 | 1172071,3 | 1745220,0 | 2917291 | 573148,7 |
| 2001 | 0,396666667 | 5707,7 | 1431107,4 | 2314206,4 | 3745314 | 883099 |
| 2002 | 0,371333333 | 6235,9 | 1665484,0 | 2167400,0 | 3832884 | 501916 |
| 2003 | 0,380666667 | 7276,0 | 2626181,0 | 2590377,5 | 5216559 | -35803,5 |
| 2004 | 0,388666667 | 8680,4 | 3515930,0 | 3615449,8 | 7131380 | 99519,8 |
| 2005 | 0,388666667 | 13238,7 | 4211221,8 | 4347151,2 | 8558373 | 135929,4 |
| 2006 | 0,377333333 | 20983,0 | 5266743,5 | 6372165,0 | 11638909 | 1105422 |
| 2007 | 0,360666667 | 33050,3 | 5713525,3 | 6058222,3 | 11771748 | 344697 |
| 2008 | 0,358 | 48852,5 | 7169980,9 | 47756040,2 | 54926021 | 40586059 |
| 2009 | 0,358 | 44297,0 | 6123110,5 | 14701358,8 | 20824469 | 8578248 |
| 2010 | 0,343666667 | 52909,3 | 6600611,6 | 21360210,2 | 27960822 | 14759599 |
| 2011 | 0,341666667 | 65951,6 | 9755968,7 | 26570898,3 | 36326867 | 16814930 |
| 2012 | 0,333 | 69683,9 | 9652870,6 | 23907983,7 | 33560854 | 14255113 |
| 2013 | 0,333 | 74164,4 | 10712502,5 | 23975416,8 | 34687919 | 13262914 |
| 2014 | 0,333 | 75234,7 | 9187697,6 | 21828608,9 | 31016307 | 12640911 |
| 2015 | 0,337 | 52969,5 | 9221402,8 | 11424477,3 | 20645880 | 2203075 |
| 2016 | 0,337666667 | - | - | - | - | - |

**Qeyd:** *Cədvəl müəllifin hesablamaları və ARDSK-nin məlumatları əsasında tərtib edilib*

Lakin tədqiqata cəlb edilən inkişaf etmiş ölkələrdən heç biri üçün bu göstrərici 0,26-nı aşmır. Bu o deməkdir ki, adambaşına ÜDM həcminin 20 min ABŞ dollarında yüksəyə qalxması üçün xarici ticarət sub-indeksi azalmaqda davam etməli və xarici ticarət siyasəti “sağa” meyllənməlidir. 3-cü cədvəldə Azərbaycanın son 15 ildə xarici ticarət sub-indeksinin dinamikası ilə ÜDM həcmi, xarici ticarət dövriyyəsi və tədiyyə balansı arasın-

dakı əlaqə verilib. Cədvəldən görünür ki, son 15 ildə ölkənin xarici ticarət şəraiti yaxşılaşdıqca ÜDM həcmi də artmaqda davam edib. Bu fakt bir daha təsdiq edir ki, inkişaf etməkdə olan ölkələrin xarici ticarət sub-indeksinin geniş sahədə paylanmasına baxmayaraq onların iqtisadi inkişafı xarici ticarət şəraitinin liberallaşmasından və dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin azalmasından keçir.

**Qrafik №3**

***Xarici ticarət sub-indeksi ilə ÜDM həcmi arasında əlaqə***




3-cü qrafikdən görünür ki, Azərbaycanın xarici ticarət sub-indeksi ilə ÜDM arasında ciddi korrelyasiya əlaqəsi var (R=0,8859). Yuxarıda 66 ölkə üzrə adambaşına ÜDM həcmi ilə xarici ticarət sub-indeksi arasındakı əlaqəni Azərbaycanla müqayisə etsək, belə nəticəyə gələ bilərik ki, xarici ticarət şəraitinin liberallaşması Azərbaycanda ÜDM həcminin artması üçün zəruri amildir. Beləliklə, milli valyutanın devalvasiyasından çəkinərək ölkədə proteksionist xarici siyasətin aparılmasına əsas yoxdur və liberallaşma prosesi davam etməlidir. Ola bilsin ki, müəyyən dövr üçün xarici siyasətin liberallaşması mənfi və proteksionist siyasət müsbət nəticə versin, lakin ölkə iqtisadiyyatının davamlı inkişafı üçün xarici ticarətin davamlı olaraq "sağlaşmasının" zəruriliyi danılmaz faktdır.

## NƏTİCƏ

1.dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsinin azalması iqtisadi inkişaf üçün zəruridir, lakin kafi deyil. Başqa sözlə desək, dövlətin xarici ticarət fəaliyyətinə daha az müdaxilə etməsi həmişə iqtisadiyyatın inkişafı ilə müşayiət olunmur.

2.İnkişaf etmiş ölkələrdə dövlətin xarici ticarət fəaliyyətinə müdaxiləsi var, lakin bu müdaxilə müəyyən həddi aşmır.

3.İnkişaf etməkdə olan ölkələr üçün xarici ticarətin azadlığı həmişə iqtisadi inkişafla müşaiyət olunmur.

4.Azərbaycanın xarici ticarət sub-indeksi son 15 ildə davamlı olaraq azalan meyllidir;

5.Azərbaycanda milli valyutanın devalvasiyasından çəkinərək proteksionist addımların atılmasına əsas yoxdur.

## ƏDƏBİYYAT SİYAHISI

1.http://www.heritage.org

2.http://www.doingbusiness.org/

**3.**Nazim Müzəffərli "İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə". Şərq-Qərb Nəşriyyat Evi. Bakı, 2014.

4.http://www.freetheworld.com/2015/economic-freedom-of-the-world-2015.pdf

5.http://www.freetheworld.com/2014/EFW2014-POST.pdf

6.http://www3.weforum.org/docs/WEF_GlobalEnablingTrade_Report_2014.pdf

7.http://www.heritage.org/index/pdf/2015/book/index_2015.pdf

8.http://www.heritage.org/index/explore?view=by-region-country-year

9.http://www.freetheworld.com/2014/EFW2014-POST.pdf

10.http://www.stat.gov.az/source/system_nat_accounts/
11.http://www.azstat.org/MESearch/details?lang=az&type=2&id=276&departament=4
12.http://www.azstat.org/MESearch/details?lang=az&type=2&id=277&departament=4

**Гюльалиев М. Г.,** PhD
*В.н.с. Института Экономики НАНА*

**Степень государственного вмешательства во внешнюю торговлю и его макроэкономические последствия**

**Резюме**

**Цель исследования:** Изучение связи внешнеторгового суб-индекса и ВВП для некоторых развитых и развивающих стран, также воздействия внешнеторгового суб-индекса на ВВП в Азербайджане**.**

**Методология:** сравнительный анализ стран с использованием методологии Индекса Левизны (Правизны) Экономики-И(Л)ПЭ

**Основные результаты:** 1)уменьшение государственного вмешательства во внешнюю торговлю необходимо, но не достаточно для устойчивого развития; 2)Государственное вмешательство во внешнюю торговлю есть даже в развитых странах, но такое вмешательство имеет определенный предел; 3)Либерализация внешней торговли в развивающихся странах не всегда сопровождается экономическим развитием.

**Ключевые слова:** *И(Л)ПЭ, суб-индекс внешней торговли, ВВП, либерализация экономики, государственное вмешательство.*

**Gulaliyev M. G.,** PhD
*The Institute of Economics of the ANAS*

**The level of the state intervention in foreign trade and its macroeconomic consequences**

**Abstract**

**Research objective:** Studying of realtionship between the foreign trade sub-index and GDP for some developed and developing countries, as well as impacts of the foreign trade sub-index on GDP in Azerbaijan**.**

**Methodology:** the comparative analysis of the countries by using of the methodology of the Index of Leftness (Rightness) of Economy-IL(R)E.

**Main results:** 1) reduction of the state intervention in foreign trade is necessary, but it is not enough for a sustainable development of economy; 2) The state intervention in foreign trade take place even in the developed countries, but such intervention has the certain limit (for these countries foreign trade sub-index is less than 0, 26); 3) Liberalization of foreign trade in developing countries isn't always followed by economic development.

**Keywords:** *IL(R)E, sub-index of foreign trade, GDP, liberalization of economy, state intervention.*

**Daxil olub:** 23.12.2015
**Rəy verib:** i.f.d. *Məmmədov Y. Ə.*